

Kənan Hacı

# Hacı İsgəndər

Roman

(əvvəli ötən sayımızda)

### Müəllifdən

*1918-ci ildə Qafqaz İslam Ordusu Nuru Paşanın komandanlığı altında Azərbaycanın azadlığı uğrunda savaşanda Hacı İsgəndər özünümüdafiə batalyonu yaradaraq ermənilərə qarşı döyüşüb misilsiz fədakarlıq göstərərək Nuru Paşa tərəfindən "Xalq Qəhrəmanı" ordeni ilə təltif edilib. Bolşeviklər hakimiyyətə gəldikdən sonra Hacı İsgəndər daim təqib altında olub. Onu ölümdən o dövrdə Azərbaycana rəhbərlik etmiş Ruhulla Axundov xilas edib. 1937-ci il repressiyası zamanı Ruhulla Axundovla birlikdə Hacı İsgəndər də həbs edilib, həbsdə olduğu müddətdə ona erməni müstəntiqlər tərəfindən amansız işgəncələr verilib. Ağır işgəncələrə dözməyən Hacı İsgəndər həbsxanada vəfat etsə də, onun meyitini ailəsinə verməyiblər. Hacı İsgəndər məzarı olmayan qəhrəmanlarımızdandır. "Hacı İsgəndər" romanı bu böyük türk kişisinin həyat və döyüş yolundan bəhs edir və bu mövzuda yazılan ilk romandır.*

*Hələ uzun illər bundan öncə Buzovna qəsəbəsinin axundu, ilahiyyatçı alim, şair Hacı Soltan Əlizadənin "Azərbaycan dərvişləri və rövzəxanları" kitabında Hacı İsgəndər haqqında məlumata rast gəlmişdim. O zamandan fövqəladə iradəyə, qəhrəmanlıq xüsusiyyətlərinə malik olan bu şəxsiyyətin ömür yolu diqqətimi çəkmişdir. Nə vaxtsa onun haqqında irihəcmli əsər yazacağımı düşünmürdüm. Sonrakı illərdə onunla bağlı xeyli maraqlı faktlar əldə etdim və Hacı İsgəndərin Cümhuriyyət tariximizdə müstəsna rolu, igidliyi, mərdliyi, Nuru Paşa kimi bir sərkərdənin rəğbətini qazanması və faciəli taleyi məni bu əsəri yazmağa sövq etdi. Əlbəttə, bu əsər yazılmazdan öncə Hacı Soltanın təşəbbüsü ilə onun yaşadığı evin qarşısına xatirə lövhəsi vurulub, televiziya verilişlərində haqqında süjetlər gedib, tədbirlər keçirilib. Hacı İsgəndərin geniş xalq kütləsinə tanıdılmasında onun böyük xidmətləri olub. Bu romanın yazılması da Hacı İsgəndərin adının yaddaşlarda qalması üçün növbəti bir təşəbbüsdür. Düşünürəm ki, bu cür şəxsiyyətlər hər zaman xatırlanmalı, onların keçdiyi ömür yolu gələcək nəsillər üçün örnək olmalıdır. Əsəri yazarkən Cümhuriyyət tariximizlə bağlı çoxlu sayda kitablar oxudum, arxiv materiallarıyla tanış oldum, bu da mənə romanı yazmaqda yardımçı oldu. Bu roman tarixi sənədlər əsasında yazılsa da, hər halda bədii əsərdir və yazıçı təxəyyülündən geniş istifadə olunub.*

*Kitabın araya-ərsəyə gəlməsində böyük əməyi olan həyat yoldaşım, filologiya üzrə fəlsəfə doktoru İlhamə Hacıyevaya, Qafqaz Müsəlmanları İdarəsinin Xəzər rayonu üzrə qazisi, tədqiqatçı alim Hacı Soltan Əlizadəyə, Azərbaycan Yazıçılar Birliyinin Xəzər bölməsinin sədri, şair-qəzəlxan Arif Buzovnalıya xüsusi təşəkkürlərimi bildirirəm!*

***Əliyar sübh çağı yuxudan ayılınca heç səhər yeməyinə qalmadı, tələsik əynini geyinib dənizkənarı qumsallıqla qayalara tərəf getdi. Xanımının onun nə vaxt evdən çıxdığından xəbəri olmadı. Səhər çağının ayazı iliklərinəcən işlədi.Özünü küləklə dolu boş kuzə kimi hiss edirdi, içində bir uğultu vardı. Sübh nəsimi sanki onun yuxusunu körükləyirdi. Ayaqlarında yüngüllük, ürəyindəsə ağırlıq vardı. Bir anlıq ona elə gəldi ki, başqa bir zaman, başqa bir məkana düşüb. Hövlləndi, vahimə içində çevrilib kəndə baxdı, kənd öz yerində idi, amma hələ yuxulu idi. Yastı damların bacasından tüstü çıxırdı.Yuxuda gördüyü qocanın əlini öz əlində hiss elədi, ona elə gəldi ki, qoca hələ də onunladır. Bağların kənarıyla getdikcə gedirdi. Ləpə dəniz kənarındakı qayıqları neft mancanaqları kimi aşağı-yuxarı yelləsaid. Bu tərpənişdən bir az toxtadı, ətraf aləmi hiss eləməyə başladı. Qumsallıqdan qayaların üstünə adladı. Bu qayalar milyon illər idi ki, dalğalara sinə gərməkdəydi, çoxunun sinəsi mamır bağlamışdı, çopur-çopur olsa da sular onların canından bir qəlpə də qopara bilməmişdi.***

Əliyar nə gördüsə, qəfil ayaq saxladı, ürəyindəki ağırlıq pırr eləyib sinəsindən uçdu, dərindən nəfəs aldı. Sevincdən çığırmaq istədi. Qarşısında ayaq izi və at ayağının ləpiri vardı. Qayanın üstünə həkk olunmuş bu izlər yuxuda gördüyünün eyni idi. Hələ də yuxuda olduğunu zənn etdi. Əliylə üz-gözünü şappıldatdı, hoppanıb-düşdü. Handan-hana əmin oldu ki, gördükləri yuxu-zad deyil, gerçəyin özüdür. Müqəddəs gerçək! Möcüzəli gerçəklik. Başını qaldırıb səmaya baxdı. Azan vaxtı idi. Əlini qulağının dibinə qoyub azan çəkdi və sonra qayanın üstündəcə sübh namazını qıldı.

Əliyar həmin gündən etibarən hər gün gəlib namazını burda qılırdı. Adamlar bura şəfa ocağı kimi baxırdılar. Bu yer öz möcüzəsini adamlara göstərəndən sonra bütün kənd əhli bura axışır, nəzir-niyaz edirdilər və şəfa tapırdılar. Bura tacirin Həzrət Əli ilə qarşılaşdığı yer idi. Qədəmgahın şöhrəti qısa zamanda Yaxın Şərq ölkələrinə yayıldı. Məşhəd, Məkkə, Həcc ziyarətinə yollanan zəvvarlar yola düşməzdən öncə qədəmgaha gəlir, namaz qılıb niyyət edir, bundan sonra müqəddəs yerlərə yola düşürdülər. Əliyara isə şeyxlik rütbəsi verilmişdi. Danışırdılar ki, Şeyx Əliyar azan çəkəndə səsi bütün kəndə yayılırdı. Ondan sonra belə qüvvətli səs Əlimuxtarda olmuşdu. Kimsə dünyasını dəyişəndə onu çağırırmışlar ki, gəlib evin damına çıxsın və minacat çəksin. Onun səsi dünyanın faniliyindən xəbər verirdi və adamlar ölümün dəhşətini iliklərinəcən hiss edib dünya işlərini unudur, əcəlin bir gün onları da haqlayacağı haqda düşünür, dərindən ah çəkirdilər. Seyid Əzim Şirvani necə demişdi?

**Dünyada bina cahu-cəlal**
**eyləmək olmaz,**
**Qəmxanə olan mülkdə hal**
**eyləmək olmaz.**

**Nadan ilə əyləşmə, gedib**
**aqili axtar,**
**Bu cəhl ilə bir kəsbi-kəmal**
**eyləmək olmaz.**

**Dünyadə durub çox demə**
**cənnət də mənimdir,**
**Həqdən bu təmənnanı sual**
**eyləmək olmaz.**

**Sal yadə bəqa mülkünü,**
**cəm eylə tədarük,**
**Səyyadi-əcəl gəlsə, məcal**
**eyləmək olmaz.**

**Bidad olasan qəbrdə qəflət**
**yuxusundan,**
**Ondan sora dünyanı xəyal**
**eyləmək olmaz.**

**Seyyid, hərəmi-həşrdə Xa-**
**liq əməl istər,**
**Məhşərdə durub cəngü-ci-**
**dal eyləmək olmaz.**

Şeyx Əliyar uzun ömründə bu qədəmgahda çox möcüzələr görəcəkdi. Dili, ayağı tutulan adamları bu müqəddəs ocağa gətirirdilər, qayıdanda dili açılırdı, öz ayağıyla pirin başına dolanırdı. Bu, Allahın lütf və mərhəməti idi. Qədəmgahdakı bulaq uzun illərdir ki, qaynayır, o bulağın suyundan içənlər canlarındakı mərəzdən xilas olurlar. Ürəkkeçməsi olan bir nəfər qədəmgahı ziyarət edəndən sonra bu bəladan xilas olmuşdu. Təbiblərin çarə tapa bilmədiyi xəstəliklərə burda əlac tapılırdı. Belə möcüzələrin sayı-hesabı yox idi.

Məhərrəm aylarında imanlı kənd camaatı bura toplaşır, Kərbəla şəhidlərinə təziyə saxlayırdılar. Mərsiyə deyib sinə vururdular. Aşura günü əllərində şam Şami-Qəribana gəlirdilər. Çar üsul-idarəsinin hökm sürdüyü bir zamanda rus canişinliyi qədəmgahın müqəddəsliyini hiss edərək on nəfər ruhaninin şahidliyi ilə ziyarətgahı rəsmi qeydiyyata almışdı. Bu hadisə 1861-ci ildə baş vermişdi. Qədəmgaha dini xidmət göstərmək və şeyxlik etmək vəkalətnamə ilə Şeyx Əliyarın oğlu Şeyx Hacı Hüseynəliyə tapşırılmışdı.

Həmin sənədin tərcüməsi belədir:

"Hicri tarixinin 1279-cu ilində (miladi 1861) verilmiş təşəkkürnamə.

Bütün mömin müsəlmanlara məlum olsun ki, rəhmətlik Şeyx Kərbəlayi Əliyarın oğlu Şeyx Hüseynəli öz atasının təyinatı ilə Buzovna qəsəbəsində yerləşən "Əliayağı" və ya "Həzrəti Əli ibn Əbu Talib Qədəmgahı" adlanan müqəddəs yerə dini xadim təyin edilmişdir. Şeyx Hüseynəlinin bu müqəddəs yer üçün gördüyü işlər günəşin mövcudluğu kimi (gün kimi) hamıya məlumdur. Bütün bu xidmətlərin ixtiyar sahibi məhz Şeyx Hüseynəlidir (Xidmət hüququ məhz Şeyx Hüseynəliyə məxsusdur) və əgər kimsə onun xidməti işlərinə müdaxilə etməyə və ya adı çəkilən Şeyxin xidmət hüququna qəsb etməyə cəhd göstərərsə, həmin şəxs lənətlənmiş və inamından dönmüş hesab edilir. Bundan əlavə biz, Buzovna sakinləri, təsdiq edirik ki, adı çəkilən Şeyx "Həzrət Əli Qədəmgahı"-nın layiqli xadimidir və kim ki, bu təşəkkürnaməni öz imzası və möhürü ilə təsdiq edərsə, o kəs Allahın və onun peyğəmbərinin mükafatından və xeyir-duasından kənarda qalmayacaq və şübhəsiz, yaxşılıq edəcək və bu da yaxşı əməl hesab ediləcək. Hicri tarixi 1279-cu il, Rəbiəs-sani ayının 11-i.

Kim ki, Şeyxin xidmətlərinə əngəl törətməyə cəhd edərsə, şübhəsiz, o, bunu Şeyxə qarşı etmiş olacaq.

Bu möhtəşəm hadisə Hacı Mir Yaqub Hacı Seyid Əhməd oğlu, Abdul Mütəllib, Abdul Səməd, Hacı Molla Qasım, Seyid Yusif Seyid Aslan oğlu və digər kənd sakinlərinin iştirakıyla baş vermişdir".




Sahildə qayaların üstündə komalaşmış qadınlar bəxtəvər vaxtlarında gəlib burdakı ərazidən göy gilabi yığıb aparırdılar, paltarlarını, saçlarını gilabiylə yuyurdular. Gilabi saçı ipək kimi edirdi, saçın dibini möhkəmləndirirdi. Yay-aylarında qız-gəlinlər buralarda xalça-palaz yuyurdular. İndi isə bura ölümlə nəfəs-nəfəsə dayanmağa gəlmişdilər. Arxada qanlı savaş gedirdi, igidlər kafirlərlə döyüşürdülər. Bu döyüşün nəticəsi necə olacaqdı, heç kim bilmirdi. Amma ağ ləbbadəli, üzü niqablı bəşər övladı qadınların qəlbindən qorxu hissini yox eləmişdi, sanki asudə günlərdəki kimi buralarda xalça-palaz yumağa toplaşmışdılar.

### XI fəsil

**Payimali-düşmən olsunmu**
**çəmənzari-vətən?!**
**Yurdumuz sizdən bu gün**
**çox ali himmət gözləyir.**
**Hifz üçün əğyar əlindən dil-**
**bəri-hürriyyəti,**
**Müstəqil olmuş vətən əzmü-**
**mətanət gözləyir.**
**Qoymayın olsun xəzan gül-**
**zari-istiqlalımız,**
**Sizdən istiqlalımız parlaq**
**təravət gözləyir.**
**Millətin heysiyyətin yüksəl-**
**din, ey qeyrətvəran,**
**Millətim sizdən böyük şanü-**
**şərafət gözləyir.**

*Məhəmməd Hadi*

Ara vermək bilməyən çovğunlu külək bu yazıq, ac insanların "Yox!Yox!" harayını bütün yer üzünə yaymaq istəyirdi. Şəhərin ən uzaq, ən ucqar məhəllələri də sanki bu sözlərlə dolmuşdu. Bu sözlər bir-birinə söykənərək elə bil divara dönmüşdü. Hər daşı "Yox! Yox!" deyə hayqıran bu divar sanki Bakını ikinci bir mühasirə halqasına almışdı. Bu halqanın ən uca, ən möhkəm divarı Ələviyyənin böyründən keçirdi. Elə bil qəlbindən keçənləri bu divar da hiss eləmişdi. Onu fəryad çəkən bu adamlardan ayırmaq istəyirdi. O, aclıq qamçısının iz saldığı üzlərdən qaçıb gizlənmək istəyirdi. Şübhə, təlaş, intizar içində donub qalmış bu adamlar da dərindən köks ötürərək bu qızcığaza baxırdılar. Ələviyyə qarşısında divar kimi dayanmış adamlara baxa-baxa düşünürdü:

***-Kaş çoxlu çörəyim olaydı, hərəsinə bir dənəsini verəydim, deyəydim ki, sağ olun, ey mətin insanlar, sizə baxanda atamın mərdliyi, mətinliyi yadıma düşür, sağ olun, çox sağ olun ki, məni xilas etdiniz. Heç bilmirəm sizə necə minnətdarlıq eləyim.***

***Çörək dükanının qabağında Yusif kişinin hökmlü səsi eşidildi:***

(davamı gələn sayımızda)